AZƏRBAYCAN ORDUSU

# Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Beynəlxalq Müəllimlər Günü qeyd edildi

*Beynəlxalq Müəllimlər Günü YUNESKO-nun qərarı ilə 1966-cı ildən qeyd olunur. Həmin il təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd də qəbul edilib.*



Ölkəmizdə 1993-cü ildən qeyd edilən Beynəlxalq Müəllimlər Günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır.

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə müəllim və kursant heyətinin iştirakı ilə Beynəlxalq Müəllimlər Günü təntənəli surətdə qeyd olundu.

Tədbirdə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Hərbi liseyin rəisi general-mayor Bəkir Orucov çıxış edərək bildirdi ki, bu günün qeyd olunmasının böyük mənəvi əhəmiyyəti var. "Müəllim adı müqəddəsdir, müqəddəs olduğu qədər də şərəflidir. Müəllimlər elm öyrətdikləri şagirdlərin dərin və hərtərəfli bilik alması, dünyagörüşlərinin formalaşması üçün bütün təcrübə və bacarıqlarını sərf edirlər. Bu yolda bütün çətinliklərə qatlaşır, uğur qazanmağa çalışırlar. Müəllim əməyinin sayəsində savadlı, bilikli, geniş dünyagörüşlü, cəmiyyətimizə töhfələr verəcək gənclər formalaşır.

Müstəqilliyimizin qazanılmasında və gündən-günə möhkəmlənməsində fəal iştirak edən insanlar məhz müəllimlərimizin yetirmələridir. Çox haqlı olaraq müəllimləri yeni cəmiyyət quruculuğunun memarı adlandırırlar. Bu danılmaz bir faktdır ki, hər birimizin layiqli vətəndaş kimi formalaşmasında müəllimlərin rolu əvəzsizdir".

General-mayor qeyd etdi ki, əsası 1971-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin pedaqoji kollektivinin respublikamızda hərbi kadrların yetişməsində müstəsna rolu vardır. "Hərbi təhsil sistemində özünəməxsus pedaqoji ənənələri ilə seçilən Cəmşid Naxçıvanski adına Hərbi Lisey hazırda Silahlı Qüvvələrin müxtəlif sahələrində xidmət edən vətənpərvər, fədakar zabit ordusu yetişdirib. Onların arasında Azərbaycanın ərazi bütövlüyünün qorunmasında, eləcə də ölkədə sabitliyin bərqərar edilməsində böyük xidmətlərə malik onlarla generalın, Milli qəhrəmanın adını çəkmək olar.



Möhtərəm Prezidentimiz cənab İlham Əliyev daim müəllimlərə, elmə, təhsilə böyük diqqət və önəm verir, müəllim əməyini yüksək qiymətləndirir, onların sosial müdafiəsinin gücləndirilməsi yönündə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirir...".

Hərbi liseyin rəisi çıxışını ulu öndər Heydər Əliyevin "Mən dünyada müəllimdən şərəfli ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir" kəlamı ilə bitirdi.

Tədris şöbəsinin rəisi polkovnik Elman Namazov Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsi rəisinin əmrini iştirakçıların nəzərinə çatdırdı.

Bir qrup müəllim kursantların vətənpərvərlik ruhunda tərbiyə olunmasında əldə etdiyi nailiyyətə, şərəfli müəllim vəzifəsini layiqincə yerinə yetirdiyinə görə rəhbərlik adından təşəkkür və fəxri fərmanlarla təltif olundu.

Sonda Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi biri-birindən maraqlı mahnı və rəqs proqramı ilə çıxış etdi.

**Baş leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**